**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ALİ PEDAQOJİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ ŞƏXSİYYƏTYÖNÜMLÜ TƏHSİLİN MƏZMUNU ÜZRƏ BİLİK VƏ BACARIQLARIN SİSTEMİ

5804.01-Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

**Tamara Şirzad qızı Baxşəliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Naxçıvan-2023**

Dissertasiya işi Naxçıvan Dövlət Universitetinin “Pedaqogika və psixologiya” kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**

**Rəsmi opponentlər:**

-

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurası

**Dissertasiya şurasının sədri:**

**Dissertasiya şurasının elmi katibi:**

**Elmi seminarın sədri:**

## Giriş

**Mövzunun aktuallığı.** Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair direktiv sənədlərdə yetişən nəslin şəxsiyyətyönümlük səviyyəsinin yüksəldilməsi orta ümumtəhsil məktəblərində çalışan müəllimlərlə yanaşı, ali məktəblərdə çalışan müəllimlərin qarşısında da mühüm vəzifələr qoyur. Bu vəzifələrin müvəffəqiyyətli həlli üçün ali məktəbin həm təlim prosesində, həm də auditoriyadankənar tədbirlərində tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi üçün məqsədyönlü, planlı, mütəşəkkil işlərin həyata keçirilməsi mühüm aktuallıq kəsb edir. Bunun üçün ilk növbədə ali pedaqoji müəssisələrdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi sisteminin yaradılması vacib hesab olunur. Bu o deməkdir ki, ali pedaqoji təhsil müəssisələrində müəllim hazırlığı ilə məşğul olan fakültələrdə istər mühazirələr zamanı, istərsə auditoriyadan kənar tədbirlər prosesində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə iş modelinin hazırlanması məqsədəuyğun hesab olunur.

Azərbaycanda həyata keçirilən təhsil islahatlarına dair dirtektiv sənədlərdə fənn kurikulumlarının tətbiqi zamanı təhsil alanların şəxsiyyətyönümlülük, şagirdyönümlülük, tələbyönümlülük, inteqrativlik, nəticəyönümlülük və qiymətlədirmə standatlarının hazırlanması işlərinin davamı kimi ali məktəb tələbələrinin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi ilə bağlı məqsədyönlü, planlı, mütəşəkkil işlərində həyata keçirilməsi zəruri sayılır.

Hansı ki, bu idraki bacarıqların orta ümumtəhsil məktəblərində məqsədyönlü şəkildə formalaşdırılması şagirdləri ali məktəbə hazırlamış olur. Yəni artıq 18 yaşından sonra I kurs tələbələri təhsil aldıqları dövrdə ünsiyyət və psixomotor inkişafın növbəti mərhələsinə qədəm qoyurlar. Bu mərhələdə tələbələrin şəxsiyyət kimi formalaşması üçün onların yeni bacarıqlara yiyələnmələri vacib hesab olunur. Belə bacarıqlar tələbələrin yeni koqnitivbacarıqları hesab olunur. Məhz ona görə də, şəxsiyyətyönümlülüyün yeni standartlarından biri olan

tələbəyönümlülük ali məktəb müəllimləri qarşısında təxirəsalınmaz vəzifə kimi dayanır. Başqa sözlə desək, ali məktəb müəllimləri, xüsusilə ali məktəbdə çalışan pedaqoqlar və psixoloqlar tələbəyönümlülük standartlarını tətbiq etməklə onların şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmiş olurlar.

Tələbəyönümlülük–ali məktəblərdə təhsil alanların idraki və psixomotor fəallığını inkişaf etdirməklə onlarda milli və ümumbəşəri dəyərlərin formalaşdırılması kimi başa düşülür. Bu zaman tələbənin bir şəxsiyyət kimi formalaşması üçün onların idrak və psixomotor fəallıqlarına əsaslanan milli və ümumbəşəri dəyərlərəyiyələnmə bacarıqlarının aşkara çıxarılması nəzərdə tutulur. Yeni koqnitiv bacarıqlar kimi özünü göstərən belə bacarıqlar tələbələrin yaradıcı təfəkkürünün, idrak fəaliyyətlərinin inkişafına zəmin yaratmış olur. Tələbələrin mühazirələr zamanı əldə etdikləri informasiyalarıkreativ şəkildə təhlil edə bilmələri, təhlil etdikdən sonra sağlam nəticə çıxara bilmələri, müqayisələr aparmaları onlara intelektual səviyyə qazandırır. Hansı ki, həmin intelektual səviyyədə aşkara çıxan bacarıqlar tələbələrin idrakı bacarıqları hesab olunur.

Tələbələr orta məltəblərdə şagird olarkən onların şəxsiyyətyönümlülük səviyyəsinin inkişafı üçün məqsədyönlü işlər aparılır. Bu zaman şagirdlərə aşılanan belə idraki bacarıqları onların tərbiyəyönümlülük səviyyəsin də yüksəltmiş olur. Məlum olduğu üzrə, ali məktəb tələbələrinin tərbiyəyönümlülük səviyyəsi onlara təlqin olunan mənəvi keyfiyyətlərin məcmusu kimi dəyərləndirilir. Yəni ali məktəbdə tərbiyə prosesində tələbələrə ən zəruri mənəvi keyfiyyətlərin aşılanması həyata keçirilir. Bunun üçün ilk növbədə təhsil prosesində milli və ümumbəşəri dəyərlərə əsaslanan bilik, bacarıq, vərdişlərin verilməsi prosesində mənəvi keyfiyyətlərin formalaşdırılması işinin vəhdətdə götürülməsi vacib hesab olunur. Məhz belə olduğu təqdirdə şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılmasına istiqamət almaq mümkündür.

Məlum olduğu üzrə, “Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”nda 5 əsas istiqamətlərdən birincisi səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasıdır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiqini tapan strategiyada nəzərdə tutulan şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması, ilk növbədə səriştəyə əsaslanan kreativ fəaliyyət növü kimi diqqəti cəlb eləyir.

Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Həyat böyük bir prosesdir. Bu prosesdə uğurla iştirak etmək üçün insan müasir tələblərə uyğun olan təhsilə malik olmalıdır". Zaman dəyişdikcə insanların həyata baxış nöqtəsi, ehtiyac və tələbatları dəyişir. Bu dəyişikliyin müxtəlif səbəbləri ola bilər. Elm–texnikanın inkişafı, hər sahədə qloballaşma, dəyişən yaşam tərzi və s. Bu dəyişikliklər təhsildə fərqli yanaşmaların yaranmasına səbəb olur.Bunun üçün şəxsiyyətyönümlü təhsilin məzmununun yeni modelinin yaradılmasına ciddi ehtiyac duyulur. Beləliklə, ali məktəblərdə tələbələrə ixtisaslarına uyğun biliklərin verilməsi prosesində onların şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi vacib amil hesab olunur. Əlbəttə, şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi deyəndə onların aldıqları biliklərə, qazandıqları bacarıqlara uyğun olaraq ən zəruri tərbiyə elementlərinin kompleksi hazırlanmalıdır. İlk növbədə həmin bilik, bacarıqlara uyğun ideya-siyasi tərbiyə elementləri, əxlaqi normalar, əmək sevərlik, işgüzarlıq, ətraf mühiti qorumaq, ekoloji bəlalara qarşı mübarizə aparmaq, estetik bədii zövqə yiyələnmək kimi bacarıqların tələbələrə aşılanması onların şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi üçün zəruri şərtlərdən hesab olunur. Bunları nəzərə alaraq ali pedaqoji təhsil müəssisələrində, yəni müəllim hazırlığı ilə məşğul olan fakültələrdə əsas və alt standartların hazırlanması zərurətdir. Müəllim hazırlığı ilə məşğul olan fakultələrdə təhsil alan tələbələr üçün hazırlanan əsas standartlar deyəndə pedaqogika-psixologiya fənləri üzrə müəyyən olunan təlim nəticələrinin məzmun xəttinin düzgün müəyyənləşdirilməsi, mühazirələrdə tələbələrə biliklərin əsasları ilə yanaşı ən zəruri tərbiyə elementlərinin aşılanması nəzərdə tutulur. Alt standartlar deyəndə ali məktəb təlimin məqsədlərinin dəqiq müəyyən olunması üçün didaktik startegiyaların düzgün seçilməsi, interaktivliyin təmin olunması nəzərdə tutulur.

Ümumiyyətlə, pedaqoji təmayüllü ali məktəblərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların sistem halında verilməsi yeni insanın yaradılması kimi də başa düşülməlidir.

Bütün bunlar ali məktəb təliminin məqsədyönlü, planlı və mütəşəkkil olaraq həyata keçirilməsi, auditoriyadankənar tədbirlərin göstərilən tələblərə və prinsiplərə uyğun təşkil edilməsi şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması işində mühüm rol oynayır. Şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması mühüm əhəmiyyət kəsb etdiyi üçün biz ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsil üzrə bilik, bacarıqların yeni sisteminin yaradılmasını aktuallıq kəsb edən problem kimi tədqiqata cəlb etdik.

Haqqında danışılan problemin aktuallığını əsaslandıran cəhətlərdən biri kimi bu sahədə ciddi tədqiqatların aparılmamasını da nəzərə çatdırmaq istəyirik. Çünki "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tətbiq olunmasından keçən müddət ərzində (Strategiya 2013-cu ildən bəri tətbiq olunmağa başlanmışdır.–T.B) şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı yalnız orta ümumtəhsil məktəblərinin təcrübəsi əsasında tədqiqatlar aparılmışdır. Ali məktəblərdə tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi ilə bağlı tədqiqatların aparılmamasını nəzərə alaraq bu problemin araşdırılmasını məqsədəuyğun hesab etmişik. Birincisi, ona görə ki, ali məktəblərdə səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması ilə bağlı ölkəmizdə elmi-tədqiqatmövzusu qeydə alınmamışdır. İkincisi, ali pedaqoji təhsil müəssisələrində çalışan müəllimlər, o cümlədən pedoqogika-psixologiya müəllimləri istər mühazirələrdə, istərsə də auditoriyadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bir sıra zəruri biliklərin verilməsi və lazımı bacarıqların aşılanması işində çətinlik çəkirlər. Bunları nəzərə alaraq biz ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların bütöv bir sisteminin hazırlanmasını məqsədəuyğun hesab etdik.

**Tədqiqatın obyekti**ali pedaqoji təhsil müəssisələrində

şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqlara verilməsi prosesidir.

**Tədqiqatın predmeti** ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqlar sistem halında verilməsinin imkan və yollarının yaradılmasından ibarətdir.

**Tədqiqatın məqsədi**ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi ilə bağlı həyata keçirilən işlərin mahiyyəti, məzmunu, məqsəd və vəzifələrinin planlı şəkildə həyata keçirilməsindən ibarətdir.

**Tədqiqatın fərziyyəsi**. Əgər ali pedaqoji təhsil müəssisələrində bilik və bacarıqların sistem halında verilməsi tələbələrin, cəmiyyətin, dövlətin maraq və tələbləri nəzərə alınmaqla, təhsilin məzmunu milli və bəşəri dəyərləri özündə əks etdirməklə humanistlik, dünyəvilik, varislik, interaktivlik prinsipləri əsasında müəyyənləşdirilərsə, tələbələrin şəxsiyyətyönümlülük səviyyəsini günün tələblərinə uyğun yüksəltmək olar.

**Tədqiqatın vəzifələri**. Tədqiqatın məqsədinə əsasən müəyyənləşdirilən fərziyyənin doğruluğunu sübut etməyə yönəldilən işlər zamanı aşağıdakı vəzifələrin həyata keçirilməsi vacib sayılır:

-Problemin mahiyyətini aydınlaşdırmaq;

-Problemin elmi-pedaqoji ədəbiyyatda qoyuluşunu öyrənib ümumiləşdirmək;

-Problemin ali məktəb təcrübəsində problemin qoyuluşunu öyrənmək və ümumiləşdirmək;

-Problemin həm pedaqoji, həm də psixoloji əsaslarını müəyyənləşdirib sistemə salmaq;

-Mühazirələrdə şəxsiyyətyönümlü təhsilin məzmun üzrə bilik və bacarıqların verilməsi yollarını müəyyənləşdirmək, nəzəri cəhətdən əsaslandırmaq və praktik cəhətdən şərh etmək;

-Auditoryadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların üzə çıxarılıb müəyyənləşdirmək;

-Eksperimental işi 3 mərhələdən ibarət həyata keçirmək və alınan nəticələri ümumiləşdirmək

**Tədqiqatın metodoloji əsasını** ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı fikirlər, ideyalar elmi-nəzəri müddəaların məcmusu təşkil edir.

**Tədqiqatın metodları.**Tədqiqat prosesində problemin xarakterindən irəli gələn şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması sahəsində elmi, pedaqoji, metodik sistemin öyrənilməsi ilə bağlı aşağıdakı metodlardan istifadə olunmuşdur:

**Nəzəri təhlil.** Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu ilə əlaqədar bir sıra fizioloji, pedaqoji – metodik ədəbiyyat təhlil edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır. Alınan nəticələrin dürüstlüyünü dəqiqləşdirməkdən ötrü uyğun tədqiqatların nəticələri ilə müqayisələr aparılmışdır.

**Pedaqoji müşahidə.**Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmununu öyrənmək məqsədi ilə müşahidələr aparılmışdır.

Müşahidələr zamanı şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə tələbələrə verilən biliklərin və aşılanan bacarıqların bütöv bir sistem halında olması əsas götürülmüşdür.

**Pedaqoji müsahibə və anket sorğuları.** Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıq, vərdişlərin verilməsi ilə bağlı iş təcrübəsini öyrənmək məqsədi ilə ali məktəb rəhbərləri, mühazirə və seminar müəllimləri, auditoriyadakənar tədbirlərin rəhbərləri, eləcə də tələbələrlə həm müsahibələr, həm də anket sorğuları aparılmışdır.

**Sənədlərin öyrənilməsi.** Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə biliklərin verilməsi sistemini ətraflı öyrənmək məqsədi ilə bir sıra ali məktəb sənədləri öyrənilmiş və təhlil olunmuşdur.

**Riyazi və statistik metodlar.** Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların sisteminin öyrənilməsi ilə bağlı statistik rəqəmlər öyrənilmiş və cədvəllərdə ümumiləşdirilmişdir.

**Pedaqoji eksperiment.**3 mərhələdən ibarət pedqoqji

eksperiment aparılmışdır. Birinci, müəyyənedici mərhələdə ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə həyata keçirilən işlərin vəziyyəti öyrənilərək müəyyənləşdirilmiş və nəticələr cədvəllər vasitəsilə ümumiləşdirilmişdir. Pedaqoji eksperimentin öyrədici mərhələsində materiallar hazırlanmış və pedaqoji eksperimentin öyrədici mərhələsində tətbiq edilmişdir. Üçüncü mərhəldə öyrədici materiallar sınaqdan keçirilərək ümumiləşdirilmişdir.

**Tədqiqatın elmi yeniliyi**. Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi ilə bağlı həyata keçirilən işlərin yeni modeli hazırlanmışdır.

**Tədqiqatın nəzəri əhəmiyyəti**. Tədqiqatdan irəli gələn fikirlər, elmi ideyalar, dəyərli müddəalar ali məktəb müəllimlərinə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların nəzəri əsaslarının müəyyənləşdirilməsinə köməklik göstərəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatdan alınan nəticələrdənali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi üçün hazırladığımız iş modelindən ali məktəb müəllimləri istifadə edəcək, hazırladığımız öyrədici materiallardan həm mühazirələrdə, həm seminar məşğələlərində, həm də auditoriyadankənar tədbirlərdə faydalanacaqlar.

**Müdafiəyə təqdim olunan müddəalar:**

-Mühazirələrdə və auditoriyadankənar tədbirlərdə biliklərin verilməsi və bacarıqların aşılanması sisteminin düzgün müəyyənləşdirilməsi səriştəyə əsaslandırılarsa tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin inkişafı üçün zəmin yarana bilər.

-Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi ilə bağlı həyata keçirlən işlərin mahiyyətinin, məzmunun, məqsəd və vəzifələrinin düzgün müəyyənləşdirilməsi bu sahədə çalışan ali məktəb müəllimlərinə istiqamət vermək baxımından mühüm əhəmiyyət kəsb edir.

-Mühazirələrdə və seminar məşğələlərdə şəxsiyyətyönümlü

təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi yollarının düzgün müəyyənləşdirilməsi ali məktəb tələbələrinin şəxsiyyətyönümlülük səviyyəsinin və elmi dünyagörüşlərinin formalaşmasında mühüm rol oynayır.

-Auditoriyadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi imkanlarının düzgün müəyyənləşdirilməsi tələbələrin inetelktual səviyyəsini yüksəltməklə yanaşı onların kreativ qabiliyyətlərinin foirmalaşmasını təmin etmiş olur.

-Ali pedaqoji təhsil müəssisələrində fənlərin inteqrasiyası prosesindəşəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı verilən bilik, bacarıqlar sistemi düzgün müəyyənləşdirilərsə, tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin inkişafına müsbət təsir göstərmiş olar.

**Aprobasiya.**Təqdim olunan dissertasiyanın əsas məzmunu və alınan nəticələr ölkəmizin və eləcə də Naxçıvan Muxtar Respublikasının bir sıra Respublika və Beynəlxaql səviyyəli konfranslarında və simpoziumlarda müzakirə edilmiş və elmi məqalələr şəklində Azərbaycan Respublikasının və bir sıra əcnəbi respublikalarının Ali Attestasiya Komissiyalarının tövsiyə etdiyi nüfuzlu jurnallarda çap edilmişdir.

**Dissertasiyanın struktur quruluşu.** Dissertasiya “Giriş”hissədən, 7 paraqrafı özündə əhatə edən 2 fəsildən, “Nəticə və təkliflər”dən, həmçinin istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. “Giriş” 8 səhifə -14914 işarədən, I fəsil 61 səhifə- 112161 işarədən, II fəsil 69 səhifə- 127961 işarədən, “Nəticə və təkliflər” 4 səhifə- 7597 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi 142 səhifə- 262633 işarədir.

# DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılmış, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanmış, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, aprobasiyası, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında məlumat verilmişdir.

Dissertasiyanın birinci fəsli **"Ali Pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsilə bağlı həyata keçirilən işlərin mahiyyəti və məzmunu**" adlanır. Bu fəsildə "**Problemin mahiyyəti və qoyuluşu**", **"Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu probleminin ədəbiyyatda qoyuluşu", "Problemin ali məktəb təcrübəsində qoyuluşu"** adlı paraqraflar yer alır.

Birinci fəslin "**Problemin mahiyyəti və qoyuluşu**", adlanan birinci paraqrafında Ali Pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsilə bağlı həyata keçirilən işlərin mahiyyəti və məzmunu ilə bağlı araşdırılan faktlar ümumiləşdirilmişdir. Qeyd edilir ki, ali pedaqoji təhsil müəssisələrində çalışan müəllimlər şəxsiyyət, şəxsiyyətin formalaşdırılması, şəxsiyyətyönümlü təhsil, şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı görülən işlər və bu sahədə verilən bilik, bacarıqların sistemi ilə əlaqədar elmi ideyaları, ən zəruri müddəaları, informasiyaları bilməlidirlər. Yəni ali məktəb müəllimləri danışılan problemlə bağlı sistemli biliklərə sahib olmalıdırlar.

Məhz belə olan təqdirdə ali pedaqoji təhsil müəssisələrində çalışan müəllimlər şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların təhsilalanlara kompleks halında verilməsinə nail ola bilərlər. Məlum olduğu üzrə, ədəbiyyatlarda "şəxsiyyət"məfhumu iki mənada, yəni fəlsəfi mənada və pedaqoji mənada izah edilir.

Fəlsəfi mənada şəxsiyyət deyəndə, cəmiyyəti dəyişdirməyə qadir olan tək-tək insanlar nəzərdə tutulur.

Pedaqoji mənada şəxsiyyət deyəndə, hər bir adamın həyatda

qazandığı mənəvi keyfiyyətlərin məcmusu başa düşülür.

Elmi-pedaqoji ədəbiyyatda şəxsiyyət anlayışına verilən təriflərin demək olar ki, hamısında ictimai münasibətlərdə iştirak edən, ictimai inkişafın önündə gedən fərdlərə, adamlara, insanlara şəxsiyyət deyə müraciət olunur. O da qeyd edilir ki, ictimai münasibətlərdə iştirak edən, fəallıq göstərən şagirdlər şəxsiyyət olaraq hər hansı amillər əsasında formalaşırlar. O da var ki, formalaşmaqda olan şagird şəxsiyyətinin inkişafına təsir edən amillərlə bağlı da fikir müxtəlifliyi mövcuddur.

Bütün bunlar deməyə əsas verir ki, ali pedaqoji təhsil müəssisələrində tələbə şəxsiyyətinin formalaşdırılması da müəyyən amillərə əsaslanaraq həyata keçirilməlidir. Unutmaq olmaz ki, tələbə şəxsiyyətinin formalaşdırılmasında bəzən irsiyyət amili özünü daha qabarıq göstərdiyi halda, mühit və tərbiyə amilləri də özlərini bir qədər güclü göstərə bilər. Məhz ona görə də ali məktəb müəllimləri tələbə şəxsiyyətinin formalaşdırılması işində onlara verilən biliklərlə yanaşı, davranışla əlaqədər olan milli-mənəvi keyfiyyətlərin tələbələrdə məqsədyönlü, planlı, mütəşəkkil olaraq formalaşdırılması işinə də diqqət yetirməlidirlər.

"Şəxsiyyətyönümlü təhsilin məzmunu" dedikdə bunun "şəxsiyyət" və "yönümlü" tərəfləri vardır. "Şəxsiyyətyönümlülük" təsirin şəxsiyyətin inkişafına, tərbiyəsinə, formalaşdırılmasına istiqamətləndirilməsi kimi başa düşülür. Yəni həm təhsil, həm təlim, həm də tərbiyə prosesində diqqəti şəxsiyyətin hərtərəfli inkişafına yönəltmək lazım gəlir.

Azərbaycanda təhsilin inkişafı üzrə dövlət starategiyasında qeyd olunan ilkin istiqamətə görə, səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaranması günün aktual məslələrindən hesab olunur.

Qabaqcıl təhsil sisteminə əsaslanan strateji istiqamətdə səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması, müasir təhsil sisteminin yeniləşdirilməsini özündə ehtiva edir. Bu yeniləşdirmə zamanı təhsil prosesinin müasirləşdirilməsi, müasirləşdirmə zamanı isə inteqrasiya və diferensasiyanın tətbiqi

yolu ilə tələbələrin elmi dünyagörüşlərinin formalaşdırılması hər bir ali məktəb müəlliminin qarşısında duran təxirəsalınmaz vəzifələrdən hesab olunur.

Bu gün Milli Təhsil Konsepsiyasında öz əksini tapan və təhsilin şəxsiyyətyönümlü məzmununun yaradılmasında mühüm əhəmiyyət kəsb edən məzmun standartlarının hazırlanması, tətbiqi, formalaşdırılması və təkmilləşdirilməsi şəxsiyyətyönümlü təhsilin nəticələri kimi dəyərləndirilir. Çünki təhsilin məzmun standartları, şəxsiyyətyönümlü təhsilin nəticələri olmaqla interaktiv xarakter daşıyır və bir sıra dəyərləri, o cümlədən milli-mənəvi dəyərləri özündə birləşdirir.

**“Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu probleminin ədəbiyyatda qoyuluşu”,** adlanan ikinci paraqrafda tədris edilən proqram materiallarının, dərsliklərin və dərs vəsaitlərinin heç birində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistemi ilə bağlı mövzuların yer almamasından bəhs edilir.

A.Abbasov və H.Əlizadə tərəfindən 2000-cu ildə çap olunan “Pedaqogika”[1] adlı dərs vəsaitində II fəsil “Şəxsiyyətin inkişafı və tərbiyəsi” adlanır. Bu fəsildə müəlliflər şəxsiyyətin mahiyyətini, şəxsiyyətin formalaşması məsələlərini aydınlaşdırmış, lakin şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı hətta kiçik həcmli müddəalar və mülahizələr belə irəli sürürməmişlər.

F.Sadıqov və O.Həsənlinin müəllifliyi ilə “Didaktika”[2] adı altında 2015-ci ildə çap etdirilən dərs vəsaitində II bölmə “Şəxsiyyətin formalaşdırılması məsələləri” adlanır. Bu bölmədə “Şəxsiyyət anlayışı”, “Şəxsiyyətin formalaşmasında irsiyyətin rolu”, “İrsiyyət amilinin nəzərə alınması”,“Mühit amilinin nəzərə alınması”, “Şəxsiyyətin formalaşmasında tərbiyənin rolu” kimi mövzular yer alır. Lakin həmin mövzuların təqdimində şəxsiyyətyönülü təhsilin məzmununun yaradılması ilə bağlı fikirlərə təsadüf edilmir.

---

1. Abbasov, A.N. Pedaqogika / A.N.Abbasov, H.Əlizadə; – Bakı: Renessans, – 2000. – 202 s.

2.Sadıqov, F.B. Didaktika / F.B.Sadıqov, O.Q.Həsənli. – Bakı: Elm və Təhsil, Maarif, – 1971. – 182 s.

Son illərdə, daha doğrusu, 2019-ci ilədək "Pedaqogika", "Kurikulum və "pedaqogika" (izahlı və praktik tövsiyyələrlə, tələbə və müəllimlərin stolüstü kitabları)" kimi nəşr olunan vəsaitlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı ideyalar mövcud olduğu üçün məhz həmin dərsliklər tədqiqara cəlb edilmişdir.

Belə ki, "Pedaqogika" adlı kitabın onuncu səhifəsində "Şəxsiyyətin inkişafı prosesi" başlığı altında verilən bölmədə müəllif şəxsiyyətin formalaşması və bu prosesdə şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılmaıs ilə bağlı yeni fikirlər irəli sürmək əvəzinə şəxsiyyətin inkişafı ilə bağlı üç əsas istiqamət haqqında məlumat verməklə kifayətlənib. Bioloji, sosioloji, biososioloji istiqamətlərdən bəhs edən müəllif bu istiqamətlərin müəlliflərinə də münasibət bildirərkən şəxsiyyətin formalaşmasının 4 başlıca amildən asılı olduğunu iddia edir. Göstərir ki, irsiyyət, təbii mühit, təhsil-tərbiyə və fəaliyyət insanın bir şəxsiyyət kimi inkişafını və formalaşmasını təmin edən amillərdir. Lakin bu amillərin şəxsiyyətyönümlü təhsilin məzmunundakı yeri, rolu, əhəmiyyəti barədə heç bir elmi, pedaqoji, metodik göstərişlər verilmir.

Leyla Bayramovanın"Kurikulum və Pedaqogika"[1] kitabını təhlil edərkən məlum oldu ki, müəllif ölkəmizdə kurikulum siyasəti üzrə həyata keçirilən elmi, pedaqoji, metodik işlərin ümumi sistemi haqqında məlumat vermiş, orta ümumtəhsil məktəblərində həyata keçirilməsi nəzərdə tutulan şəxsiyyətyönümlü təhsilin məzmununu şərh etmiş, amma şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması istiqamətləri haqqında məlumat verməmişdir.

M.İsmixanovun R.Bəxtiyarova ilə birlikdə hazırladıqları "Ali məktəb pedaqogikası"[2] adlı dərs vəsaitində də müəlliflər şəxsiyyətin formalaşmasında onların şəxsi fəallığının roluna daha çox üstünlük vermişlər. Doğrudan da, şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması zamanı həm müəllimlərin, həm də tələbələrin şəxsi

---

1.Bayramova, L.R. Pedaqogika(izahlı və praktik tövsiyələrlə tələbə və müəllimlərin stolüstü kitabı)/ L.R.Bayramova.–Bakı: –2009.–509 s.

2.İsmixanov, M.A. Pedaqogikanın əsasları (tədris vəsaiti) / M.A.İsmixanov. – Bakı: Nafta-Press, – 2005. – 234 s.

fəallığının rolu böyükdür.

Professor O.A.Mehrabovun 2007-ci ildə "Mütərcim" nəşriyyatı tərəfindən çap olunan "Azərbaycan təhsilinin müasir problemləri"[1] kitabında bütün fəsillər Azərbaycan təhsilindəki yeniliklərdən bəhs etsə də, şəxsiyyətyönümlü təhsillə bağlı yeniliklərdən bəhs olunmur.

Son illər şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı tədqiqat aparan Gülər Hüseynova şəxsiyyətyönümlü təhsil, kompotensiyalara əsaslanan təhsil və bu kimi məsələlərlə bağlı məlumatlar vermişdir. Verilən biliklər sistemi yalnız orta ümumtəhsil məktəblərində şəxsiyyətyönümlü təlimin məzmununun yaradılması üçün yararlı sayıldığından onlardan ali pedaqoji müəssisələrdə şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması işində istifadə etmək mümkün deyil.

Onu da qeyd edək ki, ali məktəblərdə təhsilin, təlim-tərbiyənin inkişafı və şəxsiyyətin formalaşdırılması ilə bağlı yazılan dissertasiya əsərlərində də şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması tədqiqat obyektinə çevrilməmişdir.

Bütün bu təhlil-araşdırmalar şəxsiyyətyönümlü təhsilin məzmununun daha dərindən araşdırılmasını zəruri edir.

**"Problemin ali məktəb təcrübəsində qoyuluşu"** adlanan III yarımfəsildə qeyd edilir ki, "Azərbaycanda təhsili inkişafı üzrə Dövlət Strategiyası"nda əsas istiqamətlərdən biri olan səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması istiqamətində tədqiqatların az olması bu problemin hərtərəfli öyrənilməsini tələb edir. Tədqiqat planının tələblərinə müvafiq olaraq Naxçıvan Muxtar Respublikasının ali məktəbləri ilə yanaşı, ölkəmizin ali pedaqoji təhsil müəssisələrində də müşahidələrin aparılmasını, ali məktəb sənədlərinin araşdırılmasını, bir sözlə problemin ali məktəb təcrübəsində qoyuluşunun, dərindən öyrənməsini məqsədəmüvafiq hesab etdik. Qarşıya qoyulan məqsədə uyğun olaraq Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali məktəblərdə problemin qoyuluşunun öyrənilməsinə üstünkük

---

1.Mehrabov,A.O.Azərbaycan təhsilinin müasir problemləri/ A.O.Mehrabov. – Bakı: Mütərcim, – 2007. – 448 s.

verdik və Naxçıvanda fəaliyyət göstərən Naxçıvan Müəllimlər İnstitutunu ali pedaqoji təhsil müəssisəsi kimi əsas tədqiqat obyekti hesab etdik.

Naxçıvan Müəllimlər İnstitutunun timsalında problemin qoyuluşu vəziyyətinin məqsədyönlü, planlı, mütəşəkkil olaraq öyrənilməsi bizim üçün həm asan, həm sərfəli, həm də çox önəmli oldu. Ona görə ki, hazırda çalışdığımız Naxçıvan Müəllimlər İnstitutunda oxuduğumuz mühazirələrdə, keçirdiyimiz seminarlarda və digər praktik məşğələlərdə, habelə auditoriyadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə hazırladığımız öyrədici materialların səmərəliliyinin eksperiment vasitəsilə yoxlanılması pedaqoji məntiqə daha uyğundur. Bütün bunları nəzərə alaraq biz ali pedaqoji təhsil müəsəssilərində şəxsiyyətyönümlü təhsilin məzmununun sistemi probleminin ali məktəb təcrübəsində qoyuluşunu Naxçıvan Müəllimlər İnstitutunun timsalında həyata keçirməyi planlaşdırdıq və bu istiqamətdə tədqiqatlar apardıq.

Bunun üçün ilk növbədə tələbələrin şəxsiyyət anlayışına, şəxsiyyətin formalaşması mövzusuna, şəxsiyyətin formalaşmasına təsir edən amillər probleminə münasibətlərini öyrənmək qərarına gəldik. Sorğumuzun ikinci mərhələsində isə şəxsiyyətyönümlü təlim, şəxsiyyətyönümlü təhsil, şəxsiyyətyönümlü tərbiyə, şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə səmərəli fəaliyyətin vəziyyəti, şəxsiyyətyönümlü təhsilin biliklərin və bacarıqların sistem halında öyrənilməsinə təsiri məsələlərinə münasibətlərini öyrəndik. Üçüncü mərhələdə "Hansı tarixi şəxsiyyətlərin nümunəsində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə tələbələrə bilik, bacarıqların sistemini aşılamaq olar?" sualı ilə fənn müəllimlərinə müraciət etdik. Dördüncü mərhələdə isə yuxarı kurs tələbələrinə, yəni yaxın zamanlarda müəllim olacaq tələbələrə "Şagirdlərin şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə hansı bilik, bacarıqların sistemini aşılamaq olar?" sualı ilə müraciət etdik.

Naxçıvan Müəllimlər İnstitutunun "İbtidai sinif müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Biologiya müəllimliyi", "Psixologiya müəllimliyi" ixtisaslarında təhsil alan I-IV kurs

tələbələri ilə dörd istiqamət üzrə anket sorğusu təşkil etdik. Alınan cavabları nəzərdən keçirərkən məlum oldu ki, tələbələrin əksəriyyəti şəxsiyyət anlayışı, şəxsiyyətin formalaşmasına təsir edən amillərə yalnız nəzəri cəhətdən yanaşmış, şəxsiyyətyönümlülük, şəxsiyyətyönümlü inkişafla bağlı şablon cavablar vermişlər.

Bütün bunlar onu göstərir ki, tələbələr, yəni gələcək müəllimlər şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması, onun tərbiyələndirici və inkişafetdirici məzmunu ilə bağlı nəzəri və praktik hazırlığa malik deyillər.

Tələbələrin, yəni gələcək müəllimlərin milli-mənəvi dəyərlərə dair biliklərin verilməsinə, bacarıqların aşılanmasına olan münasibətlərini də öyrənmək istədik. Məsələnin bu tərəfini öyrənmək məqsədilə Naxçıvan Dövlət Universitetində Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə təhsil alan tələbələrə "Milli-mənəvi dəyərlərə dair biliklərin verilməsinə, bacarıqların aşılanmasına necə nail olmaq olar?" sualı əsasında müraciət etdik. Alınan cavablar onu deməyə əsas verdi ki, Naxçıvan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alan tələbələrə "milli mənəvi dəyərlərlə bağlı biliklərin verilməsi, bacarıqların aşılanması məqsədyönlü, planlı və mütəşəkkil olaraq təşkil edilməmişdir.

Bütün bunlar onu deməyə əsas verir ki, tələbələr şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması üçün zəruri sayılan biliklərə yiyələnməmişlər. Ona görə də ali təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmun üzrə bilik və bacarıqların sistem halında verilməsi qaneedici səviyyədə olmadığı üçün bu problemin geniş şəkildə tədqiq olunmasına, ətraflı öyrənilməsinə zəruri ehtiyac duyulur.

Dissertasiyanın **"Ali pedaqoji təhsil müəssisələrinin təlim-tərbiyə prosesində şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı bilik və bacarıqların verilməsi sistemi"** adlanan ikinci fəslində problem dörd paraqrafda ümumiləşdirilir. **"Mühazirələrdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi işinin spesifik xüsusiyyətləri və ümumpedaqoji prinsipləri"** adlanan birinci paraqrafda qeyd edilir

ki, ölkəmizdə mövcud ali təhsil müəssisələrinin bir çoxunda müəllim hazırlığı işində şəxsiyyətyönümlü təhsilin məzmun üzrə bilik və bacarıqların sistem halında verrilməsi təcrübəsi olmadığı üçün bu barədə ali məktəb müəllimlərinə müvafiq istiqamət vemək lazım gəlir. "Azərbaycanda təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın birinci istiqamətinə görə, səriştəyə əsaslanan şəxsiyyətyönülü təhsilin məzmunun yaradılması vacib hesab olunur. Bu mənada istər orta ümumtəhsil məktəblərimizdə, istər ali təhsil müəssələrində şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması qarşıda duran ən mühüm vəzifələrdən hesab olunur. Həmin vəzifələrin həlli üçün ali məktəblərdə oxunan mühazirələrin əhəmiyyəti böyükdür. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, mühazirənin bir neçə növü vardır. Onların içərisində məktəb mühazirələri və ali məktəb mühazirələri daha geniş yer tutur.

Məktəb mühazirələrindən fərqli olaraq ali məktəb mühazirələri daha geniş miqyaslı olur və bu zaman motivasiya aparmaqla yanaşı, diferensiasiya işini də həyata keçirmək mümkün olur. Mühazirələrdə mövzular üzrə biliklərin əsaslarının tələbələrə ötürülməsi prosesində əsas motivin müəyyənləşdirilməsi üçün diferensiasiya aparılmasına zəruri ehtiyac duyulur. Ali məktəb mühazirələrində diferensiasiyanın aparılması şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması üçün zəmin yaratmış olur. Çünki diferensiasiya prosesi, yəni nəzərdə tutulan elmi, pedaqoji motivlərin diferensiallaşdırılması üçün mühazirə zamanı həm problem situasiya yaratmaq, həm müəllimin pedaqoji ustalığı üçün ayrıca yer, vaxt ayırmaqdan ötrü hər cür şərait vardır.

O da qeyd edilir ki, gələcək müəllim hazırlığı işində, xüsusilə ibtidai sinif müəllimi hazırlayan kurslarda mühazirə oxuyan müəllimlərin özlərinin şəxsiyyətyönümlü təhsilin məzmununu yaratmaq üçün yüksək səviyyələri olmalıdır. Ali pedaqoji təhsil müəssisələrində ibtidai sinif müəllimi hazırlığı prosesində pedaqogikadan mühazirə oxuyan müəllimlər şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqları sistem halında verərkən bəzi tələbləri də gözləməlidirlər. Hansı ki, həmin tələblərdə ibtidai

sinif müəlliminin peşə fəaliyyətində şəxsiyyət mövqeyinin əsas yer tutulması, onların nəzəriyə və təcrübənin vəhdəttə götürülməsini təmin etmələri və tərbiyələndirici mövqe tutmaları zəruri hesab olunur.

Ali pedaqoji təhsil müəssisələrində müəllim hazırlığı prosesində pedaqogikadan mühazirə oxuyan müəllimlər şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə biliklərin verilməsi işini o zaman sistem halında həyata keçirə bilərlər ki, onlar bu problemi tədris planına uyğun həll etsinlər. Yəni mühazirə müəllimləri tədris planı üzrə proqram materiallarında yer alan mövzuları auditoriyada şərh edərkən tədris planlarının tələblərini də nəzərə almalıdırlar.

Cəmiyyətin inkişafının indiki mərhələsində ali təhsil müəssisələrinin tədris planları tərtib olunarkən gələcək mütəxəssisin hazırlığı qarşısında duran məqsəd və vəzifələr, elmi informasiyaların məntiqi surətdə seçilməsi və sistemləşdirilməsi, fənlərarası əlaqələr, ümumi, politexnik və peşə təhsilinin biri-birini tamamlaması, təlimin istehsal əməyi ilə əlaqəsi, təhsil alanların idrak fəallığının, müstəqilliyinin, yaradıcı təfəkkürünün inkişaf etdirilməsi, nəzəri və praktik hazırlığın vəhdəti nəzərə alınmalıdır.

İkinci paraqraf **“Seminar məşğələlərində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi yolları”** adlanır. Qeyd edilir ki, mühazirələrlə yanaşı, seminar məşğələlərində də şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması üzrə işlərin məqsədyönlü, planlı və mütəşəkil olaraq yerinə yetirilməsi lazımdır. Mühazirələrədə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə tələbələrə verilən nəzəri biliklər seminar məşğələlərində bir qədər genişləndirilməli və onlarda müvafiq bacarıqlar aşılanmalıdır. Bütün bunları reallaşdırmaqdan ötrü çalışdığımız Naxçıvan müəllimlər institutunda tədqiqat planına uyğun müəyyənləşdirilmiş ekspermental qruplarda apardığımız seminar məşğələlərində şəxsiyyətyönümlü təhsilin məzmunu, tələbələrin şəxsiyyətyönümlü inkişafı üçün önəmli sayılan öyrədici materiallar hazırlayaraq tətbiq etdik.

Bu məqsədlə “Pedaqogika”, “Ümumi pedaqogika”, “Ailə

pedaqogikası", "Məktəb pedaqogikası", "Ali məktəb pedaqogikası" və digər fənlər üzrə seminar məşğələlərində ayrı-ayrı mövzularla bağlı apardığımız müzkirələrdə mövzuların şəxsiyyətyönümlülüklə, şəxsiyyətyönümlü inkişafla əlaqələndirilməsini məqsədəmüvafiq hesab etdik. Bu zaman etnopedaqoji materialların şəxsiyyətyönümlü inkişafla bağlı nümunələrindən, "Kitabi-Dədə Qorqud" dastanlarındakı müsbət qəhrəmanların şəxsiyyətyönümlü inkişafına dair epizodlardan, Nəsrəddin Tusinin "Əxlaqi-Nasiri", "Adabülbül-Mütəllimin", "Övsafül-Əşrəf" əsərlərindəki uşaqların, yeniyet-mələrin, gənclərin və tələbələrin əxlaqının saflaşdırılmasına təsir göstərəcək öyüdlər, nəsihətlər, tövsiyə və məsləhətlərdən istifadəni zəruri saydıq. İnstitutun "Təsviri incəsənət müəllimliyi" (TİM), "İbridai sinif müəllimliyi" (İSM), "Bialogiya müəllimliyi (BM), "Psixologiya müəllimliyi" (Pİ) ixtisaslarında apardığımız seminar məşğələlərində bayatılar, atalar sözləri, məsəllər, zərbi-məsəllər, nəsihətlər, vəsiyyətlər, əsatirlər, rəvayətlər, əfsanələr, nağıllar, dastalar və digər entopedaqoji materiallardankı şəxsiyyətyönümlü inkişafı səciyyələndirən epizodları, seminar mövzuları ilə əlaqələn-dirmək şərtilə, müzakirələrə cəlb etdik. Ona görə ki, seminar məşğələlərində bu kimi materialların müzakirəsi prosesində şəxsiy-yətyönümlülük və eləcə də şəxsiyətyönümlü inkişaflabağlı faktları təhlilə cəlb edən tələbələrin özlərinin şəxsiyyətyönümlülük səviyyələrinin inkişafında həmin faklarla tanışlıq mühüm əhəmiyyətə malikdir.

Ali pedaqoji təhsil müəssisələrində istər bakalavryat, istərsə də magistratura pilləsində tələbələrə əxlaq tərbiyəsi ilə bağlı "Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə əxlaq tərbiyəsinə dair yetişən nəslin nümayəndələrinə bilik və bacarıqların verilməsi" mövzusunda etnopedaqoji materiallarla yanaşı, yazılı ədəbiyyatda və xüsusilə klassiklərin əsərlərində yer alan mövzulardan da istifadə xüsusi əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, seminar məşğələlərində müvafiq pedaqoji

tələblərə söykənməklə, müəyyən prinsiplərə istinad etməklə, habelə ən zəruri təlim metodlarından,tədqiqat materiallarından istifadə etməklə öyrənənlərin şəxsiyyətyönülülük səviyyəsinin yüksəldilməsi işində müvəffəqiyyətlər qazanmaq mümkündür.

İkinci fəslin üçüncü paraqrafı "**Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə eksperimental işin təşkili və keçirilməsi**" adlanır. Ali pedaqoji təhsil müəssilərində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə tələbələrə verilən bilik və bacarıqların mahiyyətini və bu problemin ali məktəbdə, eyni zamanda elmi pedaqoji ədəbiyyatda qoyuluşunu öyrəndikdən sonra məlum oldu ki, ali pedaqoji təhsil müəssisələrində gələcək müəllimlərə şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması ilə bağlı biliklərin verilməsinə və bacarıqların aşılanmasına zəruri ehtiyac vardır. Məhz ona görə də ali pedaqoji təhsil müəssisələrinin müəllim hazırlığı ilə məşğul olan ixtisaslarında tələbələrə şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması ilə bağlı tədqiqatlar apardıq.

Tədqiqat planına uyğun olaraq Naxçıvan Müəllimlər İnstitutunun "İbtidai sinif müəllimliyi", "Təsviri incəsənət müəllimliyi", "Biologiya müəllimliyi", "Psixologiya müəllimliyi" ixtisasları üzrə qrupları şərti olaraq "İSM", " TİM", "BM", "PM" adlandırmaqla məqsədyönlü, planlı şəkildə işləri həyata keçirdik. "Ümumi pedaqogika" və "Pedaqogika" fənlərini tədris edən müəllimlərin apardıqları seminar məşğələlərinin hər birini dinlədik, qeydlər apardıq. Məlum oldu ki, tədqiqat planına uyğun olaraq "Ümumi pedaqogika" və "Pedaqogika" müəllimlərinə verdiyimiz tövsiyələrə əsasən müəllimlər mühazirə mövzuları üzrə sorğular aparır, dialoqlar təşkil edir, tələbələrin çıxışlarını dinləyir, onların hazırladıqları slaytlar əsasında cavablarına münasibət bildirir və onlara esse yazdırırlar. Seminar məşğələlərinin gedişini təhlil edərkən məlum oldu ki, seminar müəllimləri şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı lakonik məlumatlar verir, şəxsiyyətyönümlü təhsilin səriştəyə əsaslanması ilə bağlı konkret informasiyalar, metodik göstərişlər əsasında müzakirələr aparırlar.

Ayrı-ayrı ixtisaslar üzrə apardığımız ekperimentlər onu deməyə

əsas verir ki, müəllim hazırlığı ilə məşğul olan ali məktəblərdə, həmçinin digər ali təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı fənlərin tədris olunmaması, eləcə də digər hümanitar fənlərin tədrisində yetişən nəslin şəxsiyyətyönümlü inkişafı ilə bağlı tələbələrə məqsədyönlü, planlı, mütəşəkkil olaraq informasiyaların verilməməsi səbəbindən gələcək müəllimlərin şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması ilə bağlı hazırlıq səviyyələri çox aşağıdır.

Əgər ki, müəllim hazırlığı ilə məşğul olan ali məktəblərdə şəxsiyyətyönümlü təhsilin məzmunu ilə əlaqədar məqsədyönlü, planlı işlər aparılarsa, nəticədə gələcək müəllimlər şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə ən zəruri bilik və bacarıqlara yiyələnmiş olacaqlar. Bu, o deməkdir ki, həmin tələbələr, yəni gələcək müəllimlər orta ümumtəhsil məktəblərində şagirdlərin şəxsiyyətyönmülü inkişafını təmin etmək sahəsində müvəffəqiyyətlər qazanacaqlar.

İkinci fəlsin dördüncü paraqrafı "**Auditoriyadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi yolları**" adlanır. Bu paraqrafda mühazirələrdə, seminarlarda olduğu kimi auditoriyadankənar tədbirlərdə də şəxiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında tələbələrə verilməsi ilə bağlı məqsədyönlü, planlı, mütəşəkkil olaraq aparılan tədqiqatların nəticələri ümumiləşdirilir.

Elmi-pedaqoji ədəbiyyatda göstərildiyi kimi, auditoriyadankənar tədbirlərin növləri çoxdur. Bunların içərisində gecələr, görüşlər, müzakirələr, siyasi söhbətlər, tələbə konfransları, müsabiqələr, konsertlər, turnirlər, yarışlar, yürüşlər, ekskursiyalar, lektoriyalar, fakültativ məşğələlər kimi auditoriyadankənar tədbirləri göstərmək olar.

Ali təhsil müəssisələrində təşkil edilən gecələr, görüşlər, müzkirələr, tələbə konfransları tələbələrin şəxsiyyətyönümlü inkişafı üçün aparıcı mövqeyə malikdir. Tədqiqat planına uyğun olaraq Naxçıvan Müəllimlər İnstitutunun ayrı-ayrı fakültələrində tələbə

təşkilatları, institutun həmkarlar təşkilatlarının köməyi ilə şairlərin, yazıçıların, elm adamlarının yubileyləri şərəfinə gecələr təşkil etdik. Bu kimi insanlarla keçirilən görüşlər şəxsiyyətyönümlü təhsilin məzmunun yaradılması sahəsində irəliyə atılan ən uğurlu addımlardan hesab olunmalıdır.

Elm adamları, əməkçi insanlarla, əmək qəhrəmanları, milli qəhrəmanlarla, görkəmli idmançılarla təşkil edilən görüşlər tələbələrin şəxsiyyətyönümlü inkişafında mühüm rol oynayır.

Belə görüşlərdə tələbələrin bir qismi siyasətçi şəxsiyyətlərin, bir qismi elm aləmində nailiyyətlər qazanan şəxsiyyətlərin, digər bir qismi mədəniyyət, incəsənət sahəsində zirvələr fəth edən şəxsiyyətlərin həyat tərzlərinə maraq göstərir, onların qazandıqları uğurlarla maraqlanır və onlara bənzəmək istəyirlər. Ona görə belə görüşlər şagirdlərin şəxsiyyətyönümlülük səviyyəsini yüksəltmiş olur.

Onu da qeyd edək ki, ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə biliklərin verilməsi işində tələbə konfranslarının təşkili tələbələrin bir neçə cəhətdən inkişafını özündə səciyyələndirir. Birincisi, tələbələrin tədqiqatçılığa istiqamətləndirilməsi onlarda tədqiqatçılıq qabiliyyətlərinin yaranmasına səbəb olur. İkincisi, konfranslarda tədqiqatçılıq qabiliyyətlərini nümayiş etdirən tələbələrlə yanaşı, digər iştirakçı tələbələrin də tədqiqatçılığa maraq göstərmələrinə və meyl etmələrinə şərait və imkan yaranmış olur. Ən ümdəsi, tələbə konfranslarının şəxsiyyətyönümlü təhsilin məzmunu probleminə həsr olunması tələbələrin şəxsiyyətyönümlü inkişafını təmin edir və onların şəxsiyyətyönümlü səviyyəsinin yüksəldilməsinə ciddi təsir göstərir.

Bir sözlə, ali pedaqoji təhsil müəssisələrinin auditoriyadankənar tədbirlərində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi gələcək müəllimlərin səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil üzrə müsbət təcrübə qazanmalarına yol açmış olacaqdır.

Tədqiqatdan alınan **nəticələr** aşağıdakı kimi öz əksini tapmışdır.

1.Azərbaycan Respublikası Prezidentinin imzasıilə təsdiqini tapan “Azərbaycanda Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası”ının birinci istiqamətində səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması müəllimlər və eləcə də tədqiqatçılar qarşısında ciddi və təxirə salınmaz vəzifələr qoyduğu üçün bu problemin geniş miqyaslı tədqiq olunması məqsədəmüvafiq sayılmışdır.

2.Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməsi ilə bağlı aparılan tədqiqatların nəticələri bir daha sübut etdi ki, bu problemin həllinə zəruri ehtiyac vardır.

3.Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında verilməməsi gələcəkdə şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasına öz mənfi təsirini göstərmiş olur. Bunun üçün şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə yeni modelin yaradılmasını məqsədəuyğun hesab etdik.

4.Ali pedaqoji təhsil müəssislərində şəxsiyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi ilə bağlı həyata keçirilən işlərin mahiyyəti aydınlaşdırılıdı və məzmunu şərh edildi.

5.Problemin elmi, pedaqoji ədəbiyyatda qoyuluşu nəzərdən keçirildi və məlum oldu ki, şəxsiyyət, şəxsiyyətin formalaşması problemi ilə bağlı monoqrafiyalar, kitablar, kitabçalar, metodik vəsaitlər, dissertasiyalar, elmi məqalələr yazılsa da, ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi ilə bağlı elmi-tədqiqat, dissertasiya əsərləri yazılmamışdır. Bunları nəzər alaraq ilk dəfə ölkəmizdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların sistem halında tədqiqinə məqsədəuyğun hesab etdik. Problemin ali məktəbdə qoyuluşu Naxçıvan Muxtar Respublikasının ali məktəbləri timsalında öyrənilərək ümumiləşdirildi. Məlum oldu ki, şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi problemi ilə bağlı göstərilən ali məktəblərdə və eləcə də republikanın digər ali məktəblərində fənlər tədris olunmur. Tədris olunan pedaqogika,

məktəb pedaqogikası, ali məktəb pedaqogikası, sosial pedaqogika, Azərbaycan xalq pedaqogikası adlı dərslik və dərs vəsaitlərində şəxsiyyətin formalaşması problemi öz əksini tapdığı halda, şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı mövzular yer almamışdır. Bunları nəzərə alaraq şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı mühazirə və seminar mövzuları nümunələri hazırlayaraq eksperimentdən keçirdik.

6.Tədqiqat planına auyğun olaraq ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi problemi ilə bağlı pedaqoji eksperimental iş həyata keçirdik. 3 mərhələdən ibarət olan eksperimental işin birinci müəyyənedici mərhələsində problemin ali pedaqoji təhsil müəssisələrindəki qoyuluşunun vəziyyətini müəyyənləşdirdik. Pedaqoji eksperimentin ikinci öyrədici mərhələsində şəxsiyyətyönümlü təhsilin məzmununa dair öyrədici materiallar hazırlayaraq tətbiq etdik. Pedaqoji eksperimentin üçüncü, yoxlayıcı mərhələsində tərəfimizdən hazırlanan öyrədici materialların səviyyəsini yoxladıq.

7.Tədqiqat planına uyğun olaraq ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların sistemi probleminin pedaqoji-psixoloji əsaslarını müəyyənləşdirdik. Bu zaman şəxsiyyətyönümlü təhsilin məzmunu ilə bağlı ümumpedaqoji prinsiplərə istinad etməyin əsas istiqamətlərini, ümumpedaqoji metodların tətbiq olunması yollarını müəyyənləşdirdik.

8.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi sistemi işinin psixoloji əsaslarını da müəyyənləşdirdik. Bu zaman şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə verilən bilik və bacarıqların lərin psixoloji əsaslarını aydınlaşdıraraq sistemə saldıq.

9.Ali pedaqoji təhsil müəssisələrinin təlim-tərbiyə prosesində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi yollarını da müəyyənləşdirərək tətbiqinə nail olduq. Belə ki, mühazirələrdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların verilməsi imkanlarını, yollarını sistemə saldıq.

10. Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik, bacarıqların sistem halında verilməsi yollarını müəyyənləşdirərkən “Pedaqogika”, “Psixologiya” fənlərinin tədrisi üçün zəruri olan şəxsiyyətyönümlü təhsilin məzmununa dair mühazirə materiallarına əlavələr hazırladıq.

11.Tərəfimizdən hazırlanan ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların mühazirə yolu ilə tələbələrə çatdırılması modeli eksperiment vasitəsiylə yoxlanıldı və səmərəli nəticələr əldə olundu. Məlum oldu ki,“Pedaqogika” fənnindən mühazirə oxuyarkən mühazirə mövzularına uyğunlaşdırmaq şərtilə hazırlanan əlavə materialların şəxsiyyətyönümlü təhsilin məzmunun həsr edilməsi tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsi baxımında mühüm əhəmiyyət kəsb edir.

12.Seminar məşğələlərində tərbiyə ilə bağlı mövzuların tədrisi prosesində də şəxsiyyətyönümlü təhsilin məzmununa dair bilik, bacarıqların verilməsini məqsədəmüvafiq hesab etdik. Bu zaman şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə tərbiyənin tərkib hissələri kimi bilik, bacarıqların verilməsini həyata keçirdik.

13.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə ideya-siyasi tərbiyəyə dair bilik, bacarıqların verilməsi tələbələrin siyasi fəallığını artırmaqla yanaşı,şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsinə təsir etmiş oldu.

14.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə əxlaq tərbiyəyə dair bilik, bacarıqların verilməsi tələbələrin rdtrtik bədiizövqlərinin formalaşdırılması ilə yanaşı,şəxsiyyətyönümlü inkişafı təmin etmiş olur.

15.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə əmək tərbiyəyə dair bilik, bacarıqların verilməsi tələbələri əmək fəaliyyətinə istiqamətləndirməklə yanaşı, onların şəxsiyyətyönümlü inkişafına müsbət təsir göstərmiş olur.

16.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə ekoloji tərbiyəyə dair bilik, bacarıqların verilməsi tələbələrin ekoloji bəlalara qarşı mübarizə imkanlarını artırmaqla yanaşı onların şəxsiyyətyönümlü inkişafına öz müsbət təsirini göstərmiş olur.

17.Şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə estetik tərbiyəyə dair bilik, bacarıqların verilməsi həm tələbələrin estetik-bədii zövqlərini formalaşdırır, həm də şəxsiyyətyönümlü inkişafa öz müsbət təsirini göstərir.

18.Ali pedaqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik-bacarıqların verilməsi probleminə dair auditoriyadankənar tədbirlərin məqsədyönlü, planlı, mütəşəkkil olaraq kreativ təşkili tələbələrin şəxsiyyətyönümlü inkişafının mühüm amilinə çevirilir.

19.Auditoriyadankənar tədbirlərdə tarixi şəxsiyyətlərə, görkəmli yazıçılara, şairlərə həsr olunan gecələrin keçirilməsi tələbələrin şəxsiyyətyönümlülük səviyyəsinin yüksəldilməsini təmin etmiş olur.

20. Auditoriyadankənar tədbirlərin aparıcı növlərindən biri kimi görkəmli mədəniyyət və incəsənət xadimləri ilə, Avropa, dünya və olimpiya çempionları ilə görüşlərin təşkili tələbələrin şəxsiyyətyönümlü inkişafına öz müsbət təsirini göstərmiş olur.

**Tədqiqatın əsas məzmunu aşağıdakı elmi məqalələrdə öz əksini tapmışdır:**

1.Baxşəliyeva T.Ş. Müasir təlim metodlarında interaktivlik //Müasir təlim metodları və yeni pedoqoji texnologiyalarının təlim-tərbiyə prosesində tətbiqi” mövzusunda keçirilən elmi praktik konfransı,- Bakı: “Pedaqogika” jurnalı,-06 may 2018.

2.Baxşəliyeva T.Ş. Ali məktəblərdə tədris prosesində yeni təlim texnologiyalarından istifadə metodları// Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Ümumi təhsildə kurikulum islahatları: nəticələr və perspektivlər-2021” Respublika elmi-praktik konfrans materialı,- may 2019.

3.Baxşəliyeva T.Ş. Ali pedoqoji təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi// “Azərbaycan və Türkiyə univerisitetləri: təhsil, elm, texnologiya” adlı I Beynəlxalq elmi- praktik konfransı,-Bakı: 18-20 dekabr Azərbaycan Texniki Univerisiteti,- 2019.

4. Baxşəliyeva T.Ş. İbtidai siniflərdə fənlərarası inteqrasiyanın təşkili təcrübəsindən//NMİ elmi-praktik konfransın materialları,-21 may 2020, s. 22-24.

5.Baxşəliyeva T.Ş. Şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılması günün vacib tələbidir. Bakı: "Pedaqogika" jurnalı, 2020, №1-s.10-19.

6.BaxşəliyevaT.Ş. Auditoriyadankənar tədbirlərdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə bilik və bacarıqların verilməsi təcrübəsindən//- Bakı: "Pedaqogika" jurnalı, -2020, №3-s.15-22.

7.Baxşəliyeva T.Ş. Nəsirəddin Tusinin pedaqoji irsində əxlaqın saflaşdırılması sistemi və onun ali məktəb tələbələrinin əxlaq tərbiyəsində və şəxsiyyətyönümlü inkişafında rolu//-Bakı: "Pedaqogika" jurnalı, -2020, №4-s.110-119.

8.Baxşəliyeva T.Ş. Şəxsiyyətyönümlü təhsilin məzmununun yaradılmasında təlimin prinsiplərinə istinad etməyin elmi –pedoqoji əsasları// NMİ Elmi əsərlər,- -2020, №4-s.23-28.

9.Baxşəliyeva T.Ş.Ali təhsil müəssisələrində şəxsiyyətyönümlü təhsilin yeni məzmununun yaradılması yolları//- Bakı: "Pedaqogika" jurnalı, -2021, №4-s.16-20.

10. Bakhshaliyeva T.S. Scientific and pedogogical bases of referense to the principles of teaching in the creation of the content of personality-oriented education// Scientific review of the problems and prospects of modern sciense and education/ Boston USA: February 2021,-s.10-23.

11. Baxşəliyeva T.Ş. Mühazirələrdə şəxsiyyətyönümlü təhsilin məzmunu üzrə biliklərin verilməsi sistemi//NDU elmi əsərləri,-2022, №1-s.137-141.

12.Baxşəliyeva T.Ş. N. Tusinin pedoqoji irsində əxlaqın saflaşdırılması sistemi və tələbələrin əxlaq tərbiyəsində onların rolu// Naxçıvan:-NDU elmi xəbərlər jurnalı. Çapda

Dissertasiyanın müdafiəsi------------2024-cü il tarixdə saat------ Naxçıvan Müəllimlər İnstitutu nəzdində fəaliyyət göstərən FD 2.40 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Naxçıvan MR, Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 1, AZ 7003, Naxçıvan Müəllimlər İnstitutu

Dissertasiya ilə Naxçıvan Müəllimlər İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Naxçıvan Müəllimlər İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir. Avtoreferat ---------2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: -------2024
Kağızın formatı: 60x841/16
Həcm: 43754 işarə
Tiraj: 100